Fransalı nazir Azərbaycana səfər edəcək

Yazan
14.11.13 23:22 -



Fransanın xarici ticarət naziri xanım Nikole Brik noyabrın sonunda Azərbaycana səfər edəcək. Bu barədə jurnalistlərə Fransanın Azərbaycandakı səfiri Paskal Mönye deyib.

Onun sözlərinə görə, səfərin məqsədi Azərbaycan-Fransa qarşılıqlı iqtisadi əməkdaşlıq komissiyasının iclasında iştirak etməkdir.

Qeyd edək ki, 2013-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan və Fransa arasında ticarət dövriyyəsi 1 183,2 milyon dollar təşkil edib.